UOT 479.24

*R.R.Həsənov*
*AMEA Şəki Regional Elmi Mərkəz*
*Şəki ş., L.Abdullayev küç., 24*
*E-mail: raqimhist@mail.ru*

# FƏTƏLİ XAN XOYSKİNİN CÜMHURİYYƏT DÖNƏMİNDƏ İCTİMAİ-SİYASİ FƏALİYYƏTİ

*Açar sözlər:* İstiqlal bəyannaməsi, Azərbaycanın baş naziri Fətəli xan Xoyski, Batum müqaviləsi, Mudros müqaviləsi, Azərbaycan parlamenti, Bakının qurtuluşu

## *Giriş*

Azərbaycan xalqının yüzillər boyu sahib olduğu dövlətçilik ənənələrinin yüksək zirvələrindən biri şərqdə ilk parlamentli demokratik respublika sayılan Azərbaycan Xalq Cümhuriyyətidir. Azərbaycan Xalq Cümhuriyyəti az müddət, 23 ay yaşamasına baxmayaraq, dünya siyasi aləminə nümayiş etdirdi ki, nə qədər işğallara, soyqırımlara rəğmən, xalqımız həmişə dövlətçilik ənənələrini yaşatmağa qadirdir. Cümhuriyyətdə demokratik əsasların olması, ərazisində yaşayan bütün xalqların inkişafı üçün bərabər mühit yaradılmasına çalışması onu nümayiş etdirdi ki, Azərbaycan xalqı və onun milli ziyalıları dövrün intellektual səviyyəsinə malik şəxslərdir. Azərbaycan Xalq Cümhuriyyətinin formalaşmasında xidmət göstərən siyasi xadimlərin demokratik əsaslara söykənmələri, dünya hüquq sistemi ilə dövlət idarəçiliyini həyata keçirmələri buna bariz nümunədir.

Demokratik ziyalılarımızın formalaşdığı dövr müstəmləkə rejiminə təsadüf etsə də, bu maneəni aradan qaldırmağı bacardılar. Siyasi xadimlər Çar Rusiyasının dəmir pərdələri altında əzab çəkən Azərbaycan xalqını xilas etmək yolunda əllərindən gələn hər şeyi ortaya qoydular. Milli dirçəliş meyillərinin meydana gəlməsində və milli şuurun formalaşmasında fəaliyyət göstərən milli ziyalılarımızın əsas istəkləri Azərbaycan xalqının layiq olduğu müstəqil dövlət yaratmaq istəyini reallaşdırmaq idi.

Mütləq monarxiyanın hökm sürdüyü və qərb mətbuatında “xalqlar həbsxanası” adlandırılan Çar Rusiyasında zorla ruslaşdırma meyillərinin, milli şuurun yox edilməsi kimi məsələlərin baş tutmamasının səbəbi demokratik ziyalılarımızın bu mənfur niyyətə sədd çəkməsi olmuşdur. Cümhuriyyət siyasi xadimləri adını almış həmin şəxslər hər bir sahədə istər mədəniyyətdə, istər sosial-siyasi həyatda xalqımıza “Azərbaycançılıq” ideologiyasını aşılamağa çalışırdılar. Görkəmli alim Yaşar Qarayevin dili ilə desək, “Millət Azərbaycan, milli ideya, dövlətçiliyin sivil ideya modeli Azərbaycançılıq**!** **(**14; 3) “Azərbaycançılıq” ideologiyasının ardıcıl və məqsədyönlü formalaşma prosesində XIX əsrin II yarısında təşəkkül tapan Maarifçilik hərəkatının böyük rolu olmuşdur. Maarifçi hərəkat milli ziyalıların siyasi xadim kimi formalaşması, milli burjuaziyanın xalqa dəstəyi nəticəsində 1918-ci ilin 28 mayında Azərbaycan Xalq Cümhuriyyəti kimi bir dövlət yarandı.

Xalq Cümhuriyyətinin yaradılması nəticəsində özünə daha münbit həyat və inkişaf zəmini əldə edən “Azərbaycançılıq” ideologiyası bir tərəfdən millətimizin 1918-ci ilə qədərki intellektual potensialından doğan genişmiqyaslı ictimai-siyasi fikrin bütün sahələrini əhatə edən araşdırmaların məntiqi yekunu kimi rəsmləşmiş, digər tərəfdən onun fəaliyyət çərçivələrini genişləndirmişdir. Fəlsəfə elmləri doktoru Səlahəddin Xəlilovun dili ilə desək: “Milli ruh inkişafında müəyyən mərhələlərdən keçir. Bir şəxsin özünüdərk yolunda keçdiyi emosiyadan təfəkkürə və oradan da fəlsəfi dünyagörüşünə doğru keçdiyi yola bənzər olaraq,

bir millət də yalnız ruhun emosional halından fəlsəfi özünüdərk məqamına yüksələrək əsl böyük millət olur" (14; 34).

Azərbaycan Xalq Cümhuriyyətinin siyasi xadimləri içərisində öz dahiliyi ilə seçilən, üç dəfə hökümət kabinetinə rəhbərlik etmiş Azərbaycanın ilk baş naziri Fətəli xan Xoyski Azərbaycan xalqının XIX əsrin sonu, XX əsrin əvvəllərinin yetişdirdiyi fundamental siyasi xadimlərdəndir. Dərin düşüncəyə malik, hüquq sahəsində böyük bacarıqlara yiyələnmiş bu şəxs Cümhuriyyətin idarə olunmasında mahir siyasətçi olduğunu sübut etmişdir.

*İlk baş nazirlik dövründə fəaliyyət istiqamətləri*
*Birinci hökümət kabineti*

1918-ci ilin may ayının 28-də Zaqafqaziya Seyminin Azərbaycan fraksiyası İstiqlal bəyannaməsini elan etdi. Bəyannamənin hazırlanmasında Fətəli xan Xoyskinin də xidmətləri olmuşdur. İstiqlal bəyannaməsində Müəssisələr Məclisi çağırılana qədər bütün Azərbaycanın qanunverici orqanı Milli Şuranın durduğu, müvəqqəti hökümətin onun qarşısında məsuliyyət daşıdığı göstərilirdi. İlk hökümət başçısı Fətəli Xan Xoyski təyin olundu.

29 may 1918-ci ildə Fətəli xan Xoyski radioqram ilə dünya dövlətlərinə Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması barədə məlumat verdi. Radioqramda deyilirdi: "Konstantinopol, Berlin, Vyana, Paris, London, Roma, Vaşinqton, Buxarest, Tehran, Madrid, Haaqa, Moskva, Stokholm, Kiyev, Xristiyaniya, Kopenhagen xarici işlər nazirlərinə: Belə ki, Zaqafqaziya Federativ Respublikası parçalanmış, Gürcüstan ondan ayrılmışdır. Azərbaycan Milli Şurası keçən ayın 28-də öz müstəqilliyini elan etmişdir ki, Şərqi və Cənubi Zaqafqaziyadan ibarətdir. Sizdən xahiş edirəm ki, bu haqda öz hökümətlərinizə məlumat verəsiniz. Hökümətin müvəqqəti yerləşdiyi yer Yelizavetpol olacaq" (1).

Elə Həmin gün Baş nazir Fətəli xan Xoyski hökümət kabinetinin üzvlərini elan etdi. Bu hökümət kabinetində nazir postlarında aşağıdakı şəxslər yer almışdı: Nəsib bəy Yusifbəyli - Maliyyə və Xalq maarif naziri (Müsavat partiyasından), Məmməd Həsən Hacınskı - Xarici işlər naziri (Müsavat partiyasından), Xudadat bəy Məlikaslanov - Yollar və poçt teleqraf naziri (Müsəlman sosialist bloku), Xəlil bəy Xasməmmədov - Ədliyyə naziri (Müsavat partiyasından) Əkbər Şeyxülislamov - Əkinçilik naziri (Hümmət təşkilatından), Xosrov bəy Sultanov - Hərbi nazir (İttihad partiyasından), Məmməd Yusif Cəfərov - Ticarət və sənaye naziri (bitərəf) Camo Hacınski-Dövlət nəzarəti naziri (Müsəlman sosialist bloku) (8; 345). Fətəli xan Xoyski Baş nazir olmaqla yanaşı, həm də Daxili işlər naziri vəzifəsini də yerinə yetirirdi. Onun rəhbərlik etdiyi Azərbaycan hökümətinin qarşısında duran vəzifələr həm ağır, həm də ehtiyatlı siyasət yeritməyi tələb edən işlərdən ibarət idi. Dünya müharibəsinin hələ də davam etməsi, beynəlxalq vəziyyətin olduqca gərgin olması, qonşu xalqlar, əsasən də ermənilərin fitnə fəsadlar törətməsi, Bakıda daşnakların hakimiyyəti və bunu bütün Zaqafqaziyaya yaymaq istəkləri dövlətin idarə olunmasını çətinləşdirirdi. Həmçinin, Azərbaycan məsələsində Böyük Britaniya, Almaniya və RSFSR-in maraqları toqquşurdu ki, bu, ölkəmizə qarşı çoxtərəfli təzyiqin artmasına səbəb olurdu. Bu dövlətlərin hər biri Azərbaycanın neftinə sahib olmaq istəyir və bir-biri ilə rəqabət aparırdılar.

Belə bir vaxtda erməni daşnakların ölkəmizin qərb vilayətlərinə basqınları yeni yaradılan dövlətimizi təhlükə altına qoyurdu. Yeni yaradılmış Ermənistan dövləti həmin erməni daşnak qruplaşmalarına köməklik göstərir, tarixi Azərbaycan torpaqları hesabına utopik bir fikri "Böyük Ermənistan" xülyalarını gerçəkləşdirmək istəyirdi.

Erməni hököməti yaradıldığı gün Azərbaycan Xalq Cümhuriyyəti hökümətinə müraciət edərək, İrəvanın onlara güzəştə getməsini istədi. Fətəli xan Xoyski höküməti bu çətin vəziyyətdə ermənilərin istəyini yerinə yetirməli oldu. Fətəli xan Xoyskinin 29 may 1918-ci ildə Xarici işlər naziri Məmməd Həsən Haçınskiyə göndərdiyi məktubda deyilir: "Ermənilər

ultimatumu qəbul etdilər, biz də İrəvanı güzəştə getdik" (1). Buradan məlum olur ki, İrəvan hansısa şərtlər daxilində Ermənistana güzəştə gedilmişdir. Bu şərtlər ondan ibarət idi ki, ermənilər bir daha Qarabağa hücum etməyəcəklərinə söz verirdilər. Bildiyimiz kimi, "Turkmənçay" (1828) və "Ədirnə" (1829) müqavilələri ilə həmin bölgəyə həddən artıq erməni əhali köçürülmüş, əhalinin etnik tərkibi kəskin dəyişmişdir. Həmin dövrdə də Azərbaycan hökuməti ermənilərin bu istəyini yerinə yetirdi, ancaq tarix göstərdi ki, ermənilər heç bir imzaladıqları sənədə və verdikləri sözə əməl etmirlər. Heç bir neçə ay keçmədi ki, ölkəmizin qərb bölgəsindən arasıkəsilməz sarsıdıcı xəbərlər alındı. İrəvanın verilməsi hadisəsini gənc Azərbaycan hökümətinin səhvi kimi qiymətlədirmək olar.

Fətəli xan Xoyski hökümətinin qarşısında duran ən böyük problemlərdən biri, milli ordu hissələrinin olmaması idi. Hələ Çar Rusiyası dövründə 1887-ci ildən etibarən ali müsəlman silki istisna olmaqla, Azərbaycan əhalisini hərbi xidmətə aparmırdılar. Bu isə yeni yaradılan Cümhuriyyətdə böyük bir problemə çevrilmişdi. Ölkəmizin göz bəbəyi olan Bakı şəhəri Stepan Şamuyanın rəhbərlik etdiyi bolşevik-daşnak hökümətinin əlində idi. Yəni ölkədə ikihakimiyyətlilik hökm sürürdü. Bu səbəbdən Fətəli xan Xoyski hökuməti 1918-ci il may, iyun aylarında keçirilən Batum konfransında Osmanlı dövlətindən hərbi yardım istəməyə məcbur oldu. Batum konfransında 4 iyun tarixində bir müqavilə imzalandı ki, bu, Azərbaycanın gələcək inkişafı üçün zəmin yaratmış olurdu. Həmin müqavilədə deyilirdi ki, Bakıdan Batuma neftin boru xətləri ilə daşınması zəmanət altına alınır (9; 184).

### *İyun böhranı və İkinci Hökümət kabinetinin təşkili*

Nuri paşanın rəhbərliyi ilə türk ordusunun Azərbaycana gəlişindən sonra müəyyən problemlər yarandı. Belə ki, türk qoşunu Gəncəyə gəldiyi zaman qaragürühçu qüvvələrin səyi nəticəsində Nuri paşa Azərbaycan hökümətini tanımaqdan imtina edərək yeni hökümət kabinəsinin yaradılmasını və Milli şuranın buraxılmasını tələb etdi. Gəncəyə axışan bu qaragüruhçu burjua mülkədar və klerikal qüvvələrin mürtəce hissəsi Milli şura və hökümətin demokratik əhval-ruhiyyəli şəxslərdən ibarət olmasını istəmirdilər (8; 355). Buna görə iyunun 17-də Milli Şuranın müvəqqəti buraxılması və bütün qanunverici hakimiyyətin Müvəqqəti hökümətin əlində cəmləşməsi haqqında qərar qəbul edildi. Qərarda deyilirdi: - "Azərbaycanın keçirməkdə olduğu muşkulati daxilliyə və xariciyyəni nəzəri – etinayə alaraq Azərbaycan Şurayi – Millisi bütün hüquq və səlahiyyətini Fətəli xan Xoyski təhti – sədarətində təşəkkül edən kabinəyə həvalə və məzkur kabinəyi arayi – ümumiyyə üzərinə müstənəd – bilətəxir Məclisi – müəsissan dəvət oluncaya qədər Azərbaycan həqqi –hakimiyyətini kəndi əlində bulunduraraq kimsəyə tərk etməməyə müvəzzəf edir" (8; 355).

Qərarda konkret olaraq Müvəqqəti hökümətin hüquq və vəzifələrinin ümumi istiqamətləri göstərilirdi. Müvəqqəti hökümət hər vasitə ilə Azərbaycanın müstəqilliyini qorumalı, siyasi azadlıqlar, torpaq və başqa vacib qanunları ləğv etməmək şərtilə qalan məsələlərin həllində tam ixtiyar sahibi idi. Müvəqqəti hökümət 6 aydan gec olmayaraq Müəssisələr məclisinə seçkilər keçirib, hakimiyyəti ona təhvil verməli idi (10; 5-6). Buradan göründüyü kimi, Nuri paşanın təyziqi ilə 17 iyun günü Milli şura buraxıldı və onun səlahiyyətləri yeni yaradılan Müvəqqəti hökümətə həvalə edildi. Hökümət kabinetində nazir postlarında dəyişikliklər edilsə də, Fətəli xan Xoyski yenidən Baş nazir vəzifəsinə təyin edildi. Bu, Fətəli xan Xoyskinin təkcə Azərbaycan xalqı içərisində deyil, həm də türk komandanlığı arasında da etimadının olmasından irəli gəlirdi.

1918-ci ilin iyununda Fətəli xan Xoyskinin rəhbərliyi ilə yaradılan İkinci hökümət kabinetində Müsavat, bitərəflər və ittihatçılar yer almışdılar (8; 356). Hökümət kabineti aşağıdakı tərkib hissədən ibarət idi: Fətəli xan Xoyski Nazirlər şurasının sədri və Ədliyyə naziri, M.Hacınski Xarici işlər naziri, B.Cavanşir Daxili işlər naziri, X.Məlikaslanov Yollar

naziri, Ə.Əmircanov Maliyyə naziri, X.Sultanov Əkinçilik naziri, N.Yusifbəyli Xalq maarifi və etiqadlar naziri, A.Aşurov Ticarət və sənaye naziri, X.Rəfibəyli Xalq səhiyyə və himayədarlıq naziri. Bundan başqa müvəqqəti olaraq Poçt və teleqraf nazirliyi X.Məlikaslanova, Ərzaq nazirliyi A.Aşurova Dövlət nəzarəti nazirliyi M.H.Hacınskiyə tapşırıldı (8; 356).

Fətəli xan Xoyski İkinci hökümət kabinetinə rəhbərliyə başaldığı dövrdə respublika ərazisində olduqca gərgin vəziyyət yaranmışdı. Bir yandan ölkə daxilindəki qeyri-demokratik qüvvələr, bir yandan bolşeviklər və onlara yaxın olan təşkilatlar, bir yandan isə Bakıda özünə yuva qurmuş daşnaklar ölkədəki sabitliyə mane olmaq və Cümhuriyyətdə xaos yaratmağa çalışırdılar. Həm də S.Şaumyanın rəhbərlilyi ilə Bakı Xalq Komissarları soveti AXC-yə qarşı hücuma başlamışdı. Buna görə də Fətəli xan Xoyski hökümıti təcili olaraq ordu hissələri yaratmağa məcbur idi. Nuri paşanın yaxından iştirakı ilə 26 iyun 1918-ci ildə “Qafqaz İslam Ordusu” kimi tanınan Azərbaycan ordusu təşkil edildi.

Fətəli xan Xoyski Azərbaycanın müstəqilliyi və bir dövlət kimi inkişafı uğrunda ardıcıl mübarizə aparmağı yeni hökümətin əsas vəzifəsi olaraq bəyan etmişdir. O, Gəncədə dövlət aparatının yaradılması, ayrı-ayrı nazirlik və idarələrin təşkili ilə məşğul olmuşdur. 1918-ci il iyunun17-də Azərbaycan xalqına müraciət etdi. Burada göstərilirdi ki, hökümətin ən yaxın vəzifəsi bütün dövlət müəssisələrinin, məhkəmələrin və məktəblərin milliləşdirilməsidir (11; 29).

İyunun 24-də Azərbaycan dövlət bayrağı haqqında qərar verildi. İyunun 27-də Azərbaycan (türk) dili dövlət dili elan olundu. Dövlət dilinin Azərbaycan dili elan edilməsi ölkənin tarixində olduqca mütərəqqi hadisə idi. Az qala bir əsrə yaxın idi ki, rus müstəmləkəçiliyi altında olan Azərbaycan xalqı bütün rəsmi işlərdə rus dilindən istifadə edirdi. Fətəli xan Xoyski kimi siyasi xadimlər yaxşı başa düşürdü ki, kargüzarlıq işlərində birdən-birə rus dilinin çıxarılması bir çox problemlər yaradacaq. Çünki Azərbaycanda kadr çatışmazlığı problemi və yüksək ixtisaslı kadrların çox hissəsinin rus təhsili alması onların birbaşa Azərbaycan dilinə keçməsinə əngəl törədirdi. Buna görə də Fətəli xan Xoyski bir müddətlik istisna hal kimi kargüzarlıq işlərində rus dilindən istifadə etməyi uyğun gördü. Nazirlər Şurasının 1918-ci il 27 iyun tarixli fərmanında deyilirdi: - “Dövləti lisantürk dili qəbul edilərək, irəlidə bütün məhkəmə, idareyi - daxiliyyə və sair dəvair vəzifələri başında duranlar bu lisanı bilənlər olana qədər höküməti müəssisələrdə rus dili istimalına müsaidə edilsin”. İki il ərzində dövlət orqanlarının işinin tamamilə ana dilinə keçməsi nəzərdə tutulurdu. İctimai həyatın başqa sahələrinin də milliləşdirilməsinə başlandı (10; 6). Milli özünüdərkin dirçəldirlməsi üçün hökümət Azərbaycan şəhərlərinin qədim adlarını özünə qaytarmış, küçələrə görkəmli şəxsiyyətlərin adlarını qoymuşdur. Yelizavetpolun adının dəyişdirilərək qədim adının qaytarılması, Qaryagin qəzasının Cəbrayıl qəzası adlandırılması buna sübutdur (13; 38).

Bu dövrdə F.Xoyskinin başçılığı altında Azərbaycan hökümətinin ən mühüm işlərindən biri 1918-ci il iyulun 15-də Fövqəladə Təhqiqat Komissiyasının yaradılması olmuşdur. Bu komissiya Birinci Dünya müharibəsi illərində, Bakıdakı Mart qırğını zamanı, bütövlükdə Güney Qafqaz ərazisində türklərə və digər müsəlmanlara qarşı törədilmiş vəhşilikləri öyrənmək, bu işdə günahkarları tapmaq və onları məsuliyyətə cəlb etmək işi ilə məşğul olmalı idi. Komissiyanın tədqiqatları cəmləşdirilib əsas Avropa dillərində çap olunmalı və yayılmalı idi.

Çar Rusiyasının dağılması, anarxiyanın hökm sürməsi dəmir yollarını nəqliyyatın bütün sahələrini iflic etmişdi. Ölkənin iqtisadi həyatını qaydaya salmaq üçün dağıdılmış dəmir yolunun bərpa edilməsinin böyük əhəmiyyəti var idi. Dəmir yolunun bərpası ilə yanaşı, bir neçə ay ərzində poçt – teleqraf işləri də qaydaya düşdü.

Cümhuriyyətin qarşılaşdığı problemlərindən biri də ölkədə vahid pul əskinaslarının olmaması idi. Köhnə çar Rusiyası dövründə buraxılan pul vahidləri öz əhəmiyyətini itirmişdi. Buna görə də təcili olaraq valyuta məsələsini qaydaya salmaq lazım idi. Ancaq bu işi yerinə yetirmək elə də asan deyildi. Ümumiyyətlə, bütün dünyada xaos, özbaşınalıq getdiyi, infilyasiyanın yüksək həddə çatdığı bir dövrdə maliyyə məsələlərini həll etmək olduqca çətin idi. Həm də gənc respublikada yetərincə maliyyə mütəxəssislərinin olmaması da işə mənfi təsirini göstərməyə bilməzdi. Həmin dövrdə pulun sürətli emissiyası gedirdi. Köhnə Zaqafqaziya komissarlığının buraxdığı pulların (bon) ölkə ərazisində işlədilməsi qərara alınsa da, pul tükənmiş, respublika pul böhranına düçar olmuşdur. 11 iyun 1918-ci ildə Fətəli xan Xoyskinin Türkiyədə Azərbaycan nümayəndə heyətinin sədri Məmməd Əmin Rəsulzadəyə ünvanladığı məktubda deyilir: "Bizim dövlətimizin çox böyük pul ehtiyacı vardır. Ümumi Qafqaz üçün buraxılan bonlar ki, var onlar Azərbaycana çox az düşmüş və tükənmişdir. Hal-hazırda pul böhranı hökm sürür" (2).

Daha sonra Fətəli xan Xoyski göstərir ki, Türkiyə dövlətində yeni bonlar hazırlanmalı və təcili olaraq heç olmasa 10 milyon bon göndərilməlidir. Lakin 1918-ci ilin sentyabrında Cümhuriyyət hökuməti Bakı bonu adlı pul vahidini tədavülə buraxsa da, infilyasıyanın qarşısını almaq mümkün olmur.

*Aqrar məsələ ilə bağlı problemlər.* Fətəli xan Xoyskinin rəhbərlik etdiyi hökumətdə ən böyük problemlərdən biri də, aqrar məsələ idi. Uzun müddət müstəmləkə şəratində yaşayan Azərbaycan kəndlisinin torpaq məsələsi öz həllini gözləyirdi. Zaqafaziya Seyminin fəaliyyəti dövründə "torpaq layihəsi deyilən bir sənəd hazırlanmışdı. Həmin dövrdə bolşeviklərin təbliğatına qarşı təcili olaraq və qeyri-sistematik hazırlanan bu layihə özünü doğrultmurdu. Qanunun qeyri-sistematikliyi Cümhuriyyət elan olunduqdan sonra tam aşkara çıxdı. Buna görə də Fətəli xan Xoyski hökuməti bu layihə ilə xalqın qarşısına çıxmağın qeyri-mümkünlüyünü etiraf etdi və yeni qanun layihəsinin hazırlanmasını vacib bildi. Fətəli xan Xoyski hökuməti 22 iyun 1918-ci ildə Seymin aqrar qanununun Azərbaycan ərazisinə şamil edilməməsi barədə fərman verdi. Həmin qərarın icra hissəsində deyilirdi: "1. Zaqafqaziya Seyminin qəbul etdiyi torpaq islahatı haqqında qanunun iclası Müəssislər Məclisi çağırılana qədər dayandırılsın. 2. İndiyədək həm xüsusi, həm də dövlət torpaqlarının tutulması halları aradan qaldırılsın. 3. Torpaq pulu ödənişləri haqqında məruzə təqdim edilsin. 4. Yaxın müddətdə torpaq komitələrinin yenidən qurulması və ya ləğv edilməsi haqqında məruzə təqdim edilsin (8; 492).

Fətəli xan Xoyskinin bu qərarda vurğuladığı məsələlərdən məlum olur ki, torpaq məsələsi hökumətin ən vacib məsələlərindəndir. Ancaq ölkədə burjua mülkədar torpaq sahibliyinin mövcudluğu və bu sahibkarların yetərincə qüvvətli olması bəzi maneçiliklər yaradırdı. Sosialist fraksiyası və sol yonümlü partiyalar mülkədar torpaq sahibliyinin müsadirə edilərək birbaşa kəndlilərə heç bir ödənc olmadan verilməsini tələb edirdi. Ancaq məsələnin bu cür həll edilməsi yeni yaradılmış dövlətdə konfliktlər əmələ gətirə bilərdi. Ümumiyyətlə, Cümhuriyyətdə istər Fətəli xan Xoyskinin, istərsə də Nəsib bəy Yusifbəylinin rəhbərlik etdikləri hökumət kabinetləri bir neçə qanun layihələri versələr də aqrar məsələ həll edilməmiş qaldı.

Fətəli xan Xoyskinin baş nazir vəzifəsində çalışdığı müddətdə ən vacib məsələ Bakı şəhərinin bolşevik daşnakalardan alınması məsələsi idi. Hətta İstanbulda səlahiyyətli nümayəndə M.Rəsulzadəyə 23 avqustda göndərdiyi teleqramda da o öz həyəcanını gizlətmir. Fətəli xan Xoyski həmin teleqramda yazır: "Əsas məsələ Bakı məsələsidir, hələlik həllini tapmayıb və bilmirik ki, tezliklə tapacaq yoxsa yox" (3). Doğurdan da, Göyçay istiqamətindən Qafqaz İslam ordusu əks hücuma keçsə belə, Bakıda daşnak sağ eser və menşeviklərin qurduğu "Sentro Kaspi" diktaturası güclü müqavimət göstərirdi.

*Bakının azad edilməsinidən sonrakı vəziyyət.* Sentyabrın əvvəllərində Qafqaz İslam Ordusu Bakı ətrafında hərbi əməliyyatlara başladı. 15 sentyabr Azərbaycan tarixində ən şanlı günlərdən birinə çevrildi. Bakı bolşevik erməni-daşnaklardan azad edildi. Bu münasibətlə Fətəli xan Xoyski çıxışında deyirdi: "Bizim də yaşamaq, azad yaşamaq haqqımız var. Nə zirehli maşın, nə hidroplan, kanonerka, tikanlı məftil, mina və digər texniki qurğular, nə qüvvə tarixin təbii gedişini dayandıra bildi, onların əlliminlik orduya və texnikaya malik olmasına baxmayaraq, kiçik qüvvənin həmləsinə tab gətirməyib Bakını tərk etməkləri öz rifahı və səadətini başqasının fəlakəti və bədbəxtliyi üzərində qurmağa çalışanlar üçün ibrət dərsi olmalıdır" (8; 364). Sentyabrın 17-də F.Xoyskinin rəhbərliyi ilə Azərbaycan hökuməti Bakıya gəldi. Hökumət ilk dəqiqədən Bakıda əmin-amanlıq yaratmağa başladı. F.Xoyski bu barədə deyirdi: "Şəhər alınarkən nalayiq hərəkətlər olmuşdur. Hökumət bunu gizlətmir… Bəlkə bir çoxlarına əziyyət, bəlkə də cəza olmuşdur. Lakin mümkün idimi, hökumət bunun qarşısını saxlasın... Azərbaycan deyil, heç bir hökumət bunun qabağını almağı bacarmazdı. Burada müsəlmanlar qırılmış, namusuna, canına təcavüz edilmiş, əlindən ixtiyarı qoparılmış, ... üç gün davadan sonra şəhər alınmış, əhali və qoşun şəhərə acıqlı girmişdi" (11; 31)… hökumət üç gündən sonra Bakıya girdi. O vaxtadək nə olmuşsa da, hökumət gəldikdən sonra Azərbaycan hökuməti adından Bakı və onun ətrafı əhalisinə məlumatla müraciət etdi. Bu məlumatda millətindən, dinindən asılı olmayaraq Azərbaycanda yaşayan bütün vətəndaşların bərabər hüquqa malik olduğu, onların həyatı, əmlakı və hüquqlarının qorunacağı, ictimai qayda-qanunu pozanların müharibə qaydası ilə cəzalandırılacağı göstərilirdi.

Bakının azad edliməsi olduqca mütərəqqi hadisə idi. Azərbaycan Xalq Cümhuriyyəti Bakısız keçinə bilməzdi. Əsas təbii sərvətimiz olan neft olmadan demək olar ki, Azərbaycan iqtisadiyyatını nizamlamaq çox çətin idi.

Paytaxt Bakıya köçürüldükdən sonra Fətəli xan Xoyski hökumətinin Bakı Xalq Komissarlarının qəbul etdiyi bütün dekretlərinin ləğvinə başladı. 5 oktyabr sərəncamı ilə milliləşdirilmiş neft mədənləri və Xəzər donanması öz köhnə sahiblərinə qaytarıldı. Bakıya köçdükdən sonra F.Xoyski hökuməti istər ictimai-siyasi, istərsə də təsərrüfat və mədəni quruculuq sahəsində daha mühüm tədbirlər həyata keçirməyə başlayır. Müəssisələr məclisinin çağırılması işinin təşkili üçün Nazirlər Şurasının sədri, Daxili İşlər və Xalq Maarifi nazirlərindən ibarət komissiya yaradılır. 1918-ci il noyabrın 9-da F.Xoyskinin məruzəsi əsasında Azərbaycan hökuməti Azərbaycanın üçrəngli milli bayrağını təsdiq edir. Azad rəqabətin olması üçün hökumət kabineti sahibkarların inkişafı naminə müəyyən tədbirlər gördü. Ticarət sahəsində bir sıra əngəllərin olması bəzi sahibkarların hökumətin siyasətinə qarşı narazılığına gətirib çıxarmışdı. Belə ki, 1918-ci il 22 iyun tarixində Fətəli xan Xoyskinin rəhbərilik etdiyi hökumətin zəruri ərzaq məhsullarının ölkə xaricinə daşınmasının qadağan edilməsi ilə bağlı fərmanı xarici ticarətin zəifləməsinə səbəb olmuşdu. Ancaq bunu da qeyd etmək lazımdır ki, həmin fərmanın verilməsi gənc respublikada ərzaq qıtlığı və kütləvi aclığın olması ilə bağlı idi.

Paytaxtın Bakı şəhərinə köçürülməsindən sonra Fətəli xan Xoyskinin qarşılaşdığı problemlərdən biri də türk qoşunlarının Azərbaycan ərazisini tərk etməsi oldu. Birinci Dünya müharibəsində türk ordusunun məğlubiyyəti və 30 oktyabr tarixində Mondros müqaviləsilə müharibədən çıxması Azərbaycan Xalq Cümhuriyyətinin həm daxili, həm də xarici siyasətinə mənfi təsirini göstərdi. Mondros müqaviləsinin 2-ci maddəsinə görə Osmanlı ordusu butun Cənubi Qafqazı tərk etməli idi. Müqavilənin 14-cü maddəsinə görə qalib Antanta hərbi qüvvələri Bakı və Batuma daxil olmalı idi (8; 365). Mondros müqaviləsinin bağlanmasından sonra Nuri paşanın başçılığı ilə türk qoşunu Azərbaycanı tərk etməli oldu. Noyabrın 10-da Azərbaycan hökuməti Nuri paşa ilə vidalaşma mərasimini təşkil edib, onun şərəfinə təntənəli ziyafət verdi. Fətəli xan Xoyski çıxış edərək, Nuri paşa və onun komandanlıq etdiyi

qoşunların əsgər və zabitlərinə göstərdikləri qəhrəmanlıq və fədakarlığa görə Azərbaycan xalqının ehtiram və minnətdarlığını bildirərək təşəkkülünü bildirdi (8; 36).

Türk qoşununun Azərbaycan torpaqlarını tərk etməsi həm də ölkənin qərb vilayətlərinin erməni hücumlarına məruz qalmasına şərait yaratdı. Erməni daşnak qüvvələri Naxçıvan, Zəngəzur, Qarabağ ərazilərinə basqınlar təşkil edir, Azərbaycan xalqına qarşı soyqırımlar törədirdilər. Fətəli xan Xoyski höküməti ölkədəki daxili və xarici ziddiyyətləri aradan qaldırmaq üçün səylər göstərirdi.

Dünya müharibəsində Antanta blokunun qalib gəlməsi Almaniya və onun müttəfiqlərinin köhnə müstəmləkələrinin qaliblər arasında bölüşdürülməsinə səbəb oldu. Cənubi Qafqazın bir hissəsi Antanta milli şurasının təyinatı əsasında Böyük Britaniyanın nəzarəti altına keçdi.

Böyük Britaniya qoşunlarının Azərbaycana gəlişi söz söhbətinin yayılması, əhalinin həyəcanına səbəb oldu. Çünki hələ erməni daşnaklardan azad edilməmişdən əvvəl General Denstervilin başçılığı ilə ingilis qoşunu Bakı şəhərinə gəlmiş və Qafqaz İslam ordusuna qarşı dayanmışdı. Buna görə yerli əhali həddindən artıq narahat olurdu, hətta bir qrup insan ingilislərə qarşı mübarizə aparmaq niyyətində idi. Buna görə də Fətəli xan Xoyskinin rəhbərlik etdiyi hökümət kabineti ciddi tədbirlər görməli, hansısa bir təxribatın olmasına yol verməməli idi. Bu zaman başqa bir problem də ortaya çıxdı. Ənzəlidən gələn ingilis qoşunlarının baş komandanı general Tomson Bakıya daxil olan kimi Azərbaycan hökümətini tanımaqdan imtina etdi. Ancaq AXC hökümətinin göndərdiyi nümayəndə heyətinin General Tomsonla danışıqları nəticəsində müəyyən razılıqlar əldə olundu. Fətəli xan Xoyskinin 17 noyabr 1918-ci ildə xalqa rəsmi məlumatında deyilir: “Azərbaycan hököməti və müttəfiq qüvvələrin nümayəndəsi general Tomson arasında danışıqlar nəticəsində razılığa gəlmişdir ki, bu gün səhər 17 noyabrda Azərbaycan paytaxtına general Tomsonun başçılığı ilə müttəfiq qüvvələr daxil olacaq. Müttəfiq qüvvələrin bu daxil olması düşmənçilik aktı demək deyil və Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyünə xələl gətirməyəcək. Bütün dövlət idarələri əvvəlki kimi normal irəliləyəcəkdir. Hökümət bütün vətəndaşları sakitliyə və müttəfiq qüvvələrə qarşı mehribançılığa çağırır”.

17 noyabr günü müttəfiq qoşunların paytaxta daxil olması əhali arasında narahatlıqla qarşılansa da, Fətəli xanın yuxarıda göstərilən müraciəti məsələnin sakitliklə həll edilməsinə gətirib çıxardı. F.Xoyskinin apardığı diplomatik danışıqlar nəticəsində general Tomson Azərbaycan hökümətini tanıdığını bildirdi (11; 31). Bu, Fətəli xan Xoyskinin güclü bir siyasətçi və dövlət xadimi olduğunu bir daha sübut edir.

Türk ordusunun Azərbaycan hüdudlarını tərk etməsindən sonra Müvəqqəti Milli Şura yenidən bərpa edildi. Məqsəd İstiqlal Bəyannaməsində göstərildiyi kimi “Məclisi Müəssan” çağrılması olmuşdur. Beş aylıq fasilədən sonra 1918-ci il noyabrın 16-da Azərbaycan Milli Şurasının Bakıda birinci iclası toplanır. İclasda çıxış edən Azərbaycan hökümətinin sədri F.Xoyski bildirir ki, hökümətin Müəssislər Məclisini çağırmaq üçün hazırlıq işlərinə vaxtı çatmadığı üçün Milli Şura bu işi öz öhdəsinə götürsün. Milli Şura bu təkliflə razılaşır. Noyabrın 19-da keçən iclasında Milli Şura 120 nəfərdən ibarət Azərbaycan parlamentini yaratmaq haqqında Azərbaycan hököməti tərəfindən təqdim olunmuş qanun layihəsini bəyənir. Parlamentin açılması məsələsində mürtəce qüvvələrin təbliğatına tuş gəlmiş general Tomsonun münasibəti əvvəlcə mənfi olur. Ancaq Fətəli xan Xoyskinin səyi nəticəsində general Tomson parlamentin çağırılmasına razılığını bildirdi. 7 dekabr 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti fəaliyyətə başladı. Parlamenti Azərbaycan Milli Şurasının sədri M.Ə.Rəsulzadə təbrik nitqi ilə açdı.

Sonra söz F.Xoyskiyə verildi. F.Xoyski parlamentin işə başlaması münasibətilə deputatları təbrik edərək dedi: “Bugünkü gün Azərbaycan üçün böyük, əziz mübarək gündür

ki, yuxumuzda görməzdik, əqlimizə gəlməzdi. Bu gün o gündür ki, muxtariyyatı əlimizə aldığımız, hökümət vəkalətilə bu bayram günü sizi və sizinlə bərabər özümüzü də təbrik edirəm. Fətəli xan Xoyski çıxışında Bakının alınması, gördükləri işlər və nöqsanlarla bağlı sözünü dedi: Möhtərəm məbuslar! Əlbəttə ki, bu işlər az idi. Və öhdəmizə düşən vəzifənin bir zərrəsidir. Yalnız böyük zəlalət bu idi ki, hökümətimiz hədər olan kimidi. Bayrağında hürriyyət və əxvət yazmış olan firqələr Bakını əlimizdən almış idi, bizim paytaxtımız buraxılmış idi. Azərbaycanın köksü, paytaxtının sahibi olan müsəlman milləti qətliam edilmiş idilər. Baş bilənlər Dağıstan, İran və Turana dağılmışlar idi. Şəhərdə bir kişi yox idi ki, bunları bir yerə toplasın, bir iş görsün, böylə olan surətdə bu məsələdən başqasına artıq əhəmiyyət vermək olurmu idi? Türkiyəyə müraciətimizin əsl səbəbi də paytaxtımızı əlimizə qaytarması idi. Bu barədə çox əziyyətlər çəkildi, şimdi şükür olsun allaha məqsədə çatdıq, Bakı əlimizə keçdi. Burası hazırən xırda bir şey görülür. Amma o zəlalət yada gətirilsə, nə qədər zəhmət çəkdiyimiz anlaşılar. Bəlkə vəzifəmizi lazımınca ifa etmədik, bəlkə boynumuzda böyük günahlar var. Amma o zəhmətimiz nəzərə alınsa təqsirimiz biraz yüngülləşər. Doğrudur, möhtərəm əzalar! Şəhər alınarkən nalayiq hərəkətlər olmuşdur. Hökümət bunu gizləmir. Layiq də bilmir ki, gizlətsin. Bəlkə bir çoxlarına əziyyət, bəlkə də cəfa olmuşdur. Lakin mümkün idimi, hökümət bunun qarşısını saxlasın. Zənnimcə, insaf ilə baxılsa, Azərbaycan deyil, heç bir hökümət bunun qabağını almağı bacarmazdı. Burada müsəlmanlar qırılsın, namusuna, canına təcavüz edilmiş, əlindən ixtiyarı qoparılmış, bunu da nəzərə almalı ki, üç gün davadan sonra şəhər alınmış, əhali və qoşun şəhərə acıqlı girmiş idi. Hökümət acıqlı deyil idi, acıqlanmazdı, hökümət bu acığı saxlaya bilmirdi. Hökümət bacardığını etdi. Yüzədək müsəlman asdırdı. Çox tərəfdən hökümət barəsində sözlər deyirlər. Amma demək asandır. Deyə bilərsiniz bunu eyləmədik, eyləməli idik, fəqət bu, asanı idi (12; 28-29).

Sonra o, hökümətin may ayından bəri apardığı daxili və xarici siyasəti haqqında məlumat verdi. F.Xoyski nitqinin axırında parlamentə müraciət edərək dedi: "…hökümət çalışmışdır ki, öz nüfuzunu millətin gözündə itirməsin. Biz xahiş edirik ki, nöqsanlarımızı bizə göstəriniz… hökümətin ixtiyarı bu günə qədər idi… heç bir hökümət parlamenti açıldıqdan sonra iş başında qalamaz. Ona görə mən bütün yoldaşlarım tərəfindən xəbər verirəm, hökümət hüzurunuzda istefasını verir" (11; 32).

### *Fətəli xan Xoyskinin son baş nazirliyi dövrü. Üçüncü hökümət kabinetində fəaliyyət*

Fətəli xan Xoyski rəhbərlik etdiyi hökümətin istefa ərizəsini Parlamentə təqdim etdi və hökümətin istefası qəbul edildi. Yeni hökümətə rəhbərlik məsələsinə gəldikdə böyük əksəriyyət yenidən Fətəli xan Xoyskini Baş nazir postuna layiq gördü. Ancaq Fətəli xan səhhətinə görə bu vəzifəni tutmaqdan imtina etdi. Paramentdəki deputatların böyük bir hissəsi Fətəli xanın bu vəzifədən imtina etməsinə baxmayaraq, təkid etdi. Hətta Parlament sədrliyini əvəz edən Həsən bəy Ağayev 13 dekabr 1918-ci ildə Fətəli xan Xoyskiyə göndərdiyi məktubda yazır: "Alişan Fətəli xan Xoyski hüzuri alilərinə. Azərbaycan Cümhuriyyəti məclisi məbusanın 10 kanuni əvvəl tarixli yeni kabinə təşkil üçün baş vəkili intixab və dəvəti mənə mühəvvəl edilmişdir. Parlaman fraksiyalarının rəyini nəzərə alaraq və zat-aliyənin məharəti-siyasilərini və bu anadək Vətən və millət uğrunda göstərdikləri hüsn-xidmət və fədakarlıq böylə mühüm və müşkül məsələ üçün zat alilərini dəvət və müştərək bir etməyini arzu edirəm əfəndim!" (11;83). Fətəli xan Həsən bəy Ağayevə cavab məktubunda yazır: "Çox hörmətli Həsən bəy! Dünən tərəfimdən sizin göndərdiyiniz məktub alınmışdır. Burada siz mənim keçmiş fəaliyyətimi dəyərləndirmiş və qərara gəlmisiz ki, parlament qaşısında məsul olan koalisyon hökümətə mən rəhbərlik edim. Göstərdiyiniz etimad mənə dərindən toxundu. Bilidiyiniz kimi, səhhətim yaxşı olmadığına görə bu vəzifəni icra etməki iqtidarında deyiləm.

Ancaq mənə ehtiyac varsa, mən bunu özümə vətəndaş borcu bilirəm (11; 82). Buradan göründüyü kimi Fətəli xanın iki hökümət kabinetində gördüyü işlər yüksək qiymətləndirilir və onun yenidən baş nazir postunu idarə etməsi arzulanır. Fətəli xanın təklifə mənfi cavab verməsi Həsən bəy Ağayevi dekabr ayının 18-də yenidən məktubla müraciət etməsinə səbəb oldu. Məktubda deyilir: "Yeni hökümət təşkilində zat-alilərinizə 13 kanunda müraciət yazdığım məktubuma rədd cavabı almağa baxmayaraq, təkrarən zat-alilərinizdən millət naminə rica ediyorum ki, Vətənin bu ağır zamanında hökümət təşkili kimi məsuliyyətli bir vəzifədən bir kənar olmayıb, yeni müştərək bir kabinə təşkilini öhdənizə götürəsiniz. Zat alinizdə qərar müraciətimi parlaman fraksionlarının həpsinin müttəfi-qul-rəy və mütərəkən zat-alilərinin namizədliyini qəbul edib və tələb etməsi təzyidindən dolayı ricamın qəbulu ümidindəyəm əfəndim! (11; 84)

Həmin dövrdə siyasi gərginliyin artması və ölkədə xaosun yenidən baş qaldırması Fətəli xanın fikrindən dönərək, yenidən Baş nazir vəzifəsinə keçməsinə səbəb oldu. F.Xoyski 1918-ci il dekabrın 26-da yeni hökümətin qarşısında duran vəzifələri və tərkibini Azərbaycan parlamentinə təqdim etdi. Parlament təqdimatı geniş müzakirədən sonra qəbul etdi. F.Xoyski bu hökümətdə baş nazir vəzifəsilə yanaşı, Xarici işlər naziri vəzifəsini də tutmuşdur. Fətəli xanın yenidən baş nazir postuna qayıtması respublikanın böyük bir hissəsinin sevincinə səbəb oldu. Tiflisdəki türk gənclərinin Fətəli xana göndərdiyi məktubunda deyilir: "Səmimi qəlbdən xoşbəxtik ki, gənc Azərbaycanın başçısı vəzifəsində qaldınız. Xalqımızın xeyrinə uzun ömür, can sağlığı arzulayırıq" (11; 85).

Fətəli xan Xoyskinin rəhbərlik etdiyi III hökümət kabinetinin ömrü az olsa da, bir çox məsələlər həll edildi. Əsas məsələlərdən biri xarici aləmdə Azərbaycan Xalq Cümhuriyyətinin tanıdılması ilə bağlı ciddi işlərin görülməsi, yenicə başlamış Paris (Versal) sülh konfransına nümayəndə heyətinin seçilməsi III hökümət kabinetinin təxirəsalınmaz işlərindən idi. Paris sülh konfransına göndəriləcək nümayəndə heyəti bəlli olduqdan sonra 5 yanvar 1919-cu ildə onların təlimatı Fətəli xan Xoyski tərəfindən elan bəyan edildi. Baş nazirin təlimatında əsas məsələ ölkənin müstəqilliyinin dünya dövlətlərinə tanıdılması idi.

Fətəli xanın əsas narahatçılığına səbəb olan məsələlərdən biri mənfur qərb qonşularımız erməni daşnakların dövlət sərhədlərimizi ciddi pozmaları, dinc əhaliyə qarşı kütləvi soyqırım siyasəti tətbiq etmələri, xarici aləmdə güclü xristian dövlətlərinin himayəsi ilə müsəlman türklərə böhtan atmaqları olmuşdur. Fətəli xan Xoyski Qarabağda və Naxçıvanda erməni qırğınlarının qarşısını almaq üçün hər iki ərazidə general qubernatorluqları yaratdı.

Azərbaycan Xalq Cümhuriyyətinin üçüncü hökümət kabineti və Azərbaycan parlamenti tam demokratik əsaslarla qurulsa da, dövlətin əsaslarını dağıtmaq istəyən mənfur qüvvələr ölkənin qanunverici orqanına və onun qarşısındakı məsul hökümətə maneəçiliklər yaradırdılar. Üçüncü hökümət kabinetinin fəaliyyəti zamanı ölkənin həm xarici, həm də daxili vəziyyəti olduqca gərgin idi. Türk ordusunun ölkəni tərk etməsi, erməni daşnak qüvvələrinin yeni hücum dalğaları, Fətəli xanın rəhbərlik etdiyi höküməti çox çətin vəziyyətə qoymuşdu.

Bundan başqa parlamentdə olan müxtəlif partiyaların deputatları baş nazirin işlərinə müdaxilə etməyə çalışır, onu aqrar, neft alveri, polisin qanunsuz hərəkətlərinin qarşısını ala bilməmək və b. məsələlərdə təqsirləndirirdilər. Bu məsələlər haqqında parlamentdə bir neçə dəfə keçirilən müzakirələrdə F.Xoyski höküməti kəskin tənqid olundu. F.Xoyski parlamentin 1919-ci il fevralın 5-də keçirilən iclasında çıxış edərək siyasi rəqiblərə səsləndi: "O günlər ki, siz neçə dəfələrlə mənə müraciətən bu hökümətin təşkilinə məni vadar etdiniz… Mən o vaxt sizə dedim ki, belə xətərləri bir zamanda heç kəs cəsarət edib tamam höküməti ələ ala bilməz… Sizin sidq dil ilə hökümətin dalında durub kömək edəcəyinizə ümid oluruq… əgər görsəm ki, sədaqət yoxdur, bir dəqiqə hökümət başında durmaram… hökümətə kömək cürbəcür olur heç hökümət sorğudan inciməz… sorğu da var, sorğu da. Bir sorğu var ki,

atanın oğluna verdiyi nəsihət, bir sorğu var ki, zəhərli, bədxahlıq sorğusudur… Bu sorğu hökümətə badalaq vurmaq, biz soxmaq deməkdir" (11; 33).

Fətəli xan Xoyski Cümhuriyyət hökümətində fitnə fəsadlara son qoymaq üçün öz istefa ərizə məktubunu parlamentə göndərdi. Parlament məktubu müzakirə edərək Fətəli xanın istefa ərizəsini qəbul etdi. Ancaq parlament yeni hökümətin təşkilinə qədər vəzifəsini icra etməyi ondan xahiş etdi.

Fətəli xan Xoyski baş nazir vəzifəsindən getsə də, siyasi fəaliyyətini davam etdirdi. Beşinci hökümət kabinetində Nəsib bəy Yusifbəyli Baş nazir, Fətəli xan Xarici işlər naziri vəzifəsinə təyin olundu. Fətəli xan Xoyski xarici siyasət məsələlərində də peşəkarlığını nümayiş etdirdi.

Ümumiyyətlə, Fətəli xan Xoyskinin siyasi fəaliyyətinin əsası Cümhuriyyətin yaradılması ilə başlayırsa, eləcə Cümhuriyyətin dağılmasına kimi bu insan səhhətinin pis olmasına, müxtəlif partiyaların təyziqinə baxmayaraq, öz vətəndaş borcu kimi xalqının taleyüklü məsələlərini ölümünə qədər həll etməyə çalışmışdır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Dövlət Arxivi, Fond 970 sax v. I
2. Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsi Siyasi Sənədlər Arxivi. fond 277. sax 21
3. ARPİİSSA, 277. sax v.2 iş 17 vərəq 22.
4. ARPİİSSA, f 277. siy 2.iş 17 vərəq 83.
5. ARPİİSSA, f.277. siy 2 iş 17. vərəq 82.
6. ARPİİSSA, f.277. siy 2 iş 17 vərəq 84.
7. ARPİİSSA, f.277. siy 2 iş 17 vərəq 94.
8. Azərbaycan tarixi. Yeddi clddə. V cild. Bakı, Elm, 2008.
9. Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Qafqaz Universiteti Qafqaz Araşdırmalar Mərkəzi.
10. Azərbaycan Demokratik Respublikası Azərbaycan höküməti: Bakı. Gənclik 1990.
11. Azərbaycanın xarici işlər nazirləri. Musa Qasımlı Elmira Hüseynova. Adiloğlu nəşriyyatı. Bakı, 2003.
12. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) Parlament .(stenoqrafik hesabatlar) I cild.
13. Müstəqilliyə gedən yol: Azərbaycan Xaql Cümhuriyyəti. Biblioqrafik göstərici (1918-2009) Bakı. Elm, 2010.
14. Sona Vəliyeva. "Milli dövlətçilik hərəkatının yüksəlişi və Xalq Cümhuriyyəti dövründə "Azərbaycançılıq" ideyası: Bakı, 2003.

УДК 479.24

*Р.Р.Гасанов*
*Шекинский Региональный Научный Центр НАНА*

ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКАЯ ДЕЯТЕЛЬНОСТЬ ФАТАЛИ ХАН ХОЙСКОГО ПРИ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКЕ
*РЕЗЮМЕ*

*Ключевые слова:* Декларация независимости, Фатали хан Хойский, премьер-министр Азербайджанской Демократической Республики, Батумский договор, Мудроский договор, парламент Азербайджана, Освобождение Баку

В статье представлены деятельности первого главы правительства Азербайджанской Демократической Республики, премьер-министр Фатали хан Хойского, который занимает особое место в Азербайджанское государство и его усилия, направленные на устранение внутренних и финансовый кризис в стране. Автор, освещал внутренней и внешней политики страны в период Фатали хан Хойского. Кроме того, события произошли в период становления республики и отставка кабинета третьего состояния оцениваются как критические точки зрени. В статье использован Архивные материалы и недавно опубликованные литературы.

UDC 479.24

*R.R.Hasanov*
*Sheki Regional Scientific Center of ANAS*

SOCIAL AND POLITICAL ACTIVITIES OF FATALY KHAN KHOYSKY DURING THE DEMOCRATIC REPUBLIC
*SUMMARY*

*Key words:* Fatali Khan Khoyski, the prime minister of the Azerbaijan Democratic Republic, the Batumi agreement Mudros Treaty, the Parliament of Azerbaijan, Liberation of Baku, Declaration of freedom

In the article, presented the activity of the first head of Government of Azerbaijan Democratic Republic, the Prime Minister Fatali Khan Khoysky, who has special place in the state of Azerbaijan and his efforts towards the elimination of the internal and the financial crisis in the country. The author, in the article, lightened the domestic and foreign policies of the country in the period of Fatali Khan Khoysky as the Prime Minister. Also, the events occurred in the period of the establishment of the Republic and resignation of third state cabinet are priced as a critical standpoint. The archival materials and literatures published recently, are used in the article.

***Daxil oldu: 26.01.2023-cü il***